# Zəngəzur dəhlizi bütün ölkələr üçün faydalıdır



*Dünyada münasibətlər dəyişir, qloballaşma,qütbləşmə baş verir, böyük güclər təhdid dilində danışırlar, münaqişələr və müharibələrin getdiyi bir vaxtda Cənubi Qafqazda əsən Zəngəzur havası demək olar ki, hər yana yayılır, heç vaxt olmadığı qədər düşüncələrdə və münasibətlərdə hiss olunur.*

İyulun 4-də Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə liderlər iqtisadi sahədə əməkdaşlığı dərinləşdirmək üçün müzakirələr apardılar. Əsas diqqət həm də nəqliyyat dəhlizlərinə yönəldildi. Zəngəzur dəhlizinin açılması da bu müzakirələrdə əsas yerlərdən birini tutdu. Zəngəzur mahalı Azərbaycanın ən qədim yaşayış məskənlərindən biridir və tarixi kimi taleyi də keşməkeşli olub.

**(davamı 8-ci səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Çar Rusiyası dövründə həmin ölkədən və digər dövlətlərin ərazisindən ermənilər Azərbaycanın tarixi torpaqlarına köçürülüblər. Məskunlaşdıqdan sonra haylar öz xəbis və çirkin niyyətlərini həyata keçiriblər. Bu torpaqlara gəlmə hesab edilən ermənilər havadarlarına arxalanaraq uzun illər ərzində yerli azərbaycanlıları sıxışdırır, onlara təzyiq göstərir, mənəvi sıxıntılara məruz qoyur, qədim yer-yurd adlarını dəyişdirir, əzəli torpaqlarımızı hissə-hissə ələ keçirirdilər. Nəhayət, ötən əsrin əvvəllərində və axırlarında azərbaycanlıları deportasiyaya məruz qoyan daşnak Ermənistan Zəngəzur mahalını işğal etdi. Qədim Zəngəzur iki hissəyə parçalandı: Qərbi və Şərqi Zəngəzur. Sonra Şərqi Zəngəzur da işğala məruz qaldı. Nəhayət, 2020-ci ildə 44 günlük Vətən müharibəsində işğalçı Ermənistan üzərində tarixi qələbədən sonra Qarabağ və Şərqi Zəngəzur azad edildi və məğlub ölkə üzərinə bir neçə öhdəlik götürməyə məcbur oldu.

Lakin erməni xisləti dəyişmək bilmir. Beş ilə yaxındır ki, Ermənistan Zəngəzur dəhlizinin açılması ilə bağlı üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir, hətta ona mane olur. Buna baxmayaraq rəsmi Bakı Zəngəzur dəhlizinin Azərbaycan ərazisinə düşən hissəsində çox sürətli və genişmiqyaslı infrastruktur yaradır. Şərqi Zəngəzurda həyat əhəmiyyətli infrastruktur lahiyələr icra olunur, bölgənin enerji təsərrüfatı yenidən qurulur, hava limanları inşa olunur, yeni yollar çəkilir, yaşayış məntəqələri tikilir, keçmiş məcburi köçkünlərin həmin ərazilərdə etibarlı və layiqli məskunlaşması üçün hər cür şərait yaradılır. Şərqi Zəngəzur iqtisadi rayonunda əhəmiyyətli lahiyələrdən biri də dövlət başçısının tapşırığı ilə icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq avtomobil yollarının tikintisi və Horafiz-Ağbənd dəmir yol xəttinin çəkilməsidir. Bir sözlə, Zəngəzur dəhlizinin açılması üçün bütün işlər arıcıllıqla və yüksək keyfiyyətlə davam etdirilir. 2021-ci il oktyabrın 26-da Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan Zəngəzur dəhlizinin bir hissəsinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlini qoyublar. Hazırda həmin yolda tikinti işləri yekunlaşır. Azərbaycan Zəngəzur dəhlizini açmaqla tarixi üç əsrə söykənən qədim İpək yolunu bərpa edir. Təhlilçilərin bildirdiklərinə görə Zəngəzur dəhlizi Azərbaycanın iqtisadi və siyasi potensialını dəfələrlə artıracaq, Cənubi Qafqazda yeni inteqrasiya təşəbbüsləri yaradacaq. Çinin, Avropanın, eləcə də region dövlətlərinin Zəngəzur dəhlizində ortaq maraqları var. Zəngəzur dəhlizi ilə bağlı Azərbaycanın qətiyyətli mövqeyi dəyişməzdir. Türk Dövlətləri Təşkilatında türk dünyası bir orqanizm kimi bütövləşir, Odlar yurdu qan damarlarının birləşdiyi yerdir. Türk dünyasının və eləcə də digər dövlətlərin maraq dairəsində olan Zəngəzur dəhlizi layihəsi nəinki Ermənistanla Azərbaycan arasında birbaşa nəqliyyat əlaqələri yarada bilər, həm də İrəvanın regionda iqtisadi təcridinə son qoyar. Həmçinin, Zəngəzur dəhlizi Orta Dəhlizə alternativ marşrut ola, Çini Mərkəzi Asiya və Cənubi Qafqaz vasitəsilə Azərbaycan və Gürcüstan ərazisindən keçməklə Avropa ilə birləşdirə bilər.

Danılmaz həqiqətdir ki, sülh və inkişafın bünövrəsi iqtisadi əməkdaşlığa söykənir və böyük strateji əhəmiyyətə malikdir. Dünyada baş verən son geosiyasi hadisələr təchizat zəncirlərinin pozulması risklərini bir daha göstərdi, alternativ nəqliyyat dəhlizlərinin strateji əhəmiyyətini nümayiş etdirdi. Bu barədə Prezident İlham Əliyev yanvarın 28-də nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə çıxışı zamanı uzaqgörənliklə bildirib ki, Zəngəzur dəhlizi layihəsi Azərbaycan tərəfindən irəli sürülmüşdür. İkinci Qarabağ müharibəsindəki Zəfərimizdən sonra bu məsələ beynəlxalq gündəliyə, beynəlxalq leksikona salındı və bu gün Zəngəzur dəhlizi artıq dünyada qəbul edilmiş ifadədir, qəbul edilmiş termindir. Əlbəttə ki, biz bu dəhlizin açılması üçün praktiki addımlar atırıq. Yuxarıda qeyd etdiyimiz kimi Ermənistan tərəfi beş ilə yaxındır ki, bu məsələ ilə bağlı qeyri-konstruktiv mövqe sərgiləyir. Üzərinə götürdüyü öhdəliyə əməl etmir, müxtəlif bəhanələr gətirərək, qeyri-real və cəfəng layihələr ortaya atır, sadəcə olaraq, beynəlxalq ictimaiyyətin fikrini çaşdırmaq istəyir, manipulyasiyalarla məşğuldur. Ən əsası isə Zəngəzur dəhlizi ifadəsi Ermənistan cəmiyyətində xof yaradıb. Prezident İlham Əliyev vurğulayıb ki, Ermənistan tərəfi Zəngəzur dəhlizi ifadəsinə çox böyük qısqanclıqla yanaşır: Bilmirəm, nəyə görə? Amma deyə bilərəm ki, bu terminin - təvazökarlıqdan uzaq olsa da, - müəllifi mənəm, çünki bu onun tarixi adıdır. İkincisi, biz bu dəhlizə, sadəcə olaraq, dəmir yolu kimi baxmırıq. Çünki bu dəhlizdən həm dəmir yolu keçəcək, həm avtomobil yolu keçəcək. Bizim planımızda var, gələcəkdə oradan Naxçıvana elektrik xətləri çəkilsin. Çünki bizim elektrik enerjisi ilə bağlı çox böyük ixrac planlarımız var.

Ermənistanda nəşr olunan "Hraparak" qəzeti məlumat yayıb ki, Zəngəzur dəhlizi ilə bağlı Azərbaycan, Türkiyə və Ermənistan arasında əldə edilmiş razılaşmanın məxfiliyi ləğv edilib. Nəşrin iddiasına görə, Ermənistanın baş naziri Nikol Paşinyanın iyunun 20-də Türkiyəyə səfəri zamanı dəhlizin açılması məsələsi razılaşdırılıb. Bildirilir ki, son günlər Ermənistan mətbuatında səfər çərçivəsində əldə olunan razılaşma barədə məlumat yayıldıqdan sonra Zəngəzur dəhlizi ilə bağlı anlaşmanın məxfi xarakter daşıyan bəzi təfərrüatlarını gizli saxlamaq mümkün olmayıb: "Məlumata görə, Ermənistan, Türkiyə və Azərbaycan Zəngəzur dəhlizi layihəsi üzrə razılığa gəlib ki, bu da regional geosiyasət və nəqliyyat şəbəkələrində ciddi dəyişikliyə səbəb ola bilər. İyulun 3-də ABŞ-ın planının da məxfiliyi ləğv edilib. Bu plana görə, dəhlizə nəzarət özəl ABŞ şirkətinə veriləcək. Həmçinin bu plana əsasən, Rusiya dəhlizə nəzarətdən kənarda qalacaq". Məqalədə qeyd edilib ki, ABŞ administrasiyasının planı anti-Rusiya xətti tutan Ermənistan hakimiyyətinin maraqlarına uyğundur. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyanla iyulun sonunda Dubayda görüşəcəyi xəbəri də təsadüfi deyil: "Paşinyanın mətbuat katibi ümumi danışaraq, həmin görüş barədə məlumatı təkzib etməyib. Baş nazirin səfərləri ilə bağlı lazımi məlumatlar vaxtında verilir". Qəzet Ermənistanın xarici işlər naziri Ararat Mirzoyana istinadən yazır ki, İrəvanın əsas prioritetlərindən biri Azərbaycanla sülh danışıqlarını real nəticələrə yaxınlaşdırmaqdır. Hazırda bu istiqamətdə Azərbaycanla intensiv danışıqlar aparılır. Erməni nazirin sözlərinə görə, tərəflər artıq sülh sazişi layihəsi üzrə razılığa gəliblər və Ermənistan bu sənədi imzalamağa və ratifikasiya etməyə hazırdır. Bununla yanaşı, Ermənistan qərb qonşusu Türkiyə ilə də münasibətlərin normallaşdırılmasına çalışır. Xatırladaq ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da açıqlamasında Zəngəzur dəhlizi ilə bağlı nikbin mersajlar vermişdi. O bildirmişdi ki, Ermənistan əvvəlcə Zəngəzur dəhlizinə qarşı çıxsa da, indi regional iqtisadi inteqrasiyaya qoşulmaq üçün daha çevik mövqe sərgiləyir: "Zəngəzur dəhlizi təkcə Azərbaycan üçün deyil, bütövlükdə bölgə üçün yeni imkanlar yaradacaq. Bu nəqliyyat xəttini biz geoiqtisadi inqilabın bir parçası kimi görürük. Ermənistan və Azərbaycan arasında imzalanacaq sülh sazişi və yaranacaq qarşılıqlı anlaşma sayəsində tarixi fürsət qapılarının bir-birinin ardınca açıldığının şahidi olacağıq".

Azərbaycanın bəzi siyasi şərhçiləri isə Zəngəzur dəhlizi ilə bağlı razılaşma barədə Ermənistan mətbuatında yayılan məlumatların doğruluğuna şübhə edir. Əksəriyyət belə hesab edir ki, Ermənistan ictimaiyyəti heç bir ciddi əsası olmayan məlumatları dövriyyəyə buraxmaqla beynəlxalq aləmi aldatmağa və həmişə olduğu kimi, özünü sülh tərəfdarı kimi təqdim etməyə çalışır. Bunu isə yaxın gələcək göstərəcək ki, bu blefdir, yoxsa həqiqət? Əgər Ermənistan manipulyasiya edəcəksə heç kəsə ziyan dəyməyəcək, itirən və dalanda özü həmin ölkə olacaq. Zaman Zəngəzur dəhlizinin açılmasını tələb edir. Çünki Zəngəzur dəhlizi bütün ölkələr üçün faydalıdır. Bu dəhliz həm də Ermənistan üçün yeni iş yerlərinin yaradılmasına şərait yaradacaq. Lakin Ermənistan bu mühüm dəhlizin açılmasına tələsmir, erməni cəmiyyətində bu barədə fərqli fikirlər mövcuddur. Buna baxmayaraq, Zəngəzur dəhlizi açılacaq.

**Salman ALIOĞLU,**
**"Respublika".**

Respublika .- 2025.- 9 iyul (№ 138).- S.1;8.